# Çaxırlu

Qaraqoyunlu rəisi Qara Yusifin Azərbaycan Teymurlularıyla (Miran Şah) mübarizəsində onun ilk müttəfiqlərindən biri olan Bistam Bəy Çaxırlu etdiyi yardıma qarşılıq olaraq Divan rəisliyi ilə birlikdə Ərdəbil, Qzılağac və Şərqi Azərbaycandakı Muğan yörələrinin valiliyi ilə mükafatlandırıldı. Qaraqoyunluların çökməsindən sonra Çaxırlu boyunun çoxu Ağqoyunlu hökmdarı Uzun Həsənə tabe oldular və əski yurdlarında qaldılar. Ağqoyunluların etmiş olduğu böyük fəthlərə qatılan boy Otluqbeli savaşında da Osmanlılara qarşı Ağqoyunlu tərəfində yer aldı. Uzun Həsən Bəyin səltənətinin son illərində Sultan Xəlilin vəliəhdliyinə müxalifət edən Uğurlu Məhəmmədin üsyanını dəstəklədilər. Daha sonrakı taxt mücadiləsində də Sultan Xəlilə qarşı Yaqubun tərəfinə qatıldılar və bu sayədə Səfəvi fəthlərinə qədər Şərqi Azərbaycanın idarəsini əllərində tutdular. XVII yüzildə Səfəvilər çağında da Çaxırlu hələ Şəkinin idarəsini əlində tuturdu və XIX yüzildə Şirvanda onlara təsadüf edilmirdi.

---

**İlhan Erdem — *«Akkoyunlu Devletini Meydana Getiren Aşiretler»***

# Çâkirlü

Bu oymağın da Qaraqoyunlu ulusundan olduğunu öncə söyləmişdik. Şah Abbas çağında Çâkirlülərin başında gördüyümüz əmir, Əxi Sultandır. Əxi Sultan hicri 1013-cü (1604-1605) ildə Şirvanın fəthinə məmur edilən əmirlərdən biri idi. Abbas onların Mahmud Abad tərəflərinə köç edərək oralarda əkinçilik etmələrini əmr etmişdi. 1629-cu ildə Çâkirlülər Şəkidə otururdular. Əmirləri olan Məhəmməd Sultan da bu vilayətin valisi idi.

---

**Faruk Sümer — *«Safevi Devletinin Kuruluşu ve Gelişmesinde Anadolu Türklerinin Rolü»***

**© ATB — Azərbaycan Türkçülər Birliyi**